**F.M.ALLAHVERDİYEVA**
*filologiya elmləri doktoru, professor*
*e-mail: farida.muhammedali@mail.ru*
**:https://orcid.org/0009-0006-0534-1447**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.3.015**

# SÖZ BİRLƏŞMƏLƏRİ VƏ CÜMLƏ SİNTAKSİSİN VARİASİYALARI FONUNDA

***Xülasə.*** *Məqalə dilçilikdə ən vacib məsələlərdən olan sintaksisin tədqiqindən bəhs edir. Dilin fonetik, leksik, morfoloji səviyyələri üzrə tədqiqatlar sintaktik səviyyəyə nisbətən daha geniş tədqiq olunmuşdur. Bu səbəbdən sintaksisin istənilən sahəsi üzrə aparılan tədqiqatlar böyük əhəmiyyətə malikdir. Eyni zamanda cümləni tərkib hissələrə ayırmaq, yəni cümlə üzvlərini təyin etmək məsələsi hər zaman dilçilikdə böyük maraq doğurur. Sintaksisin əsas vəzifələrindən biri söz birləşmələrinin növlərinin hansı yollarla əmələ gəlməsini, mahiyyətini, birləşmədəki tərəflərin qrammatik əlamətlərini öyrənmək və eyni zamanda söz birləşməsi ilə mürəkkəb sözün oxşar və fərqli xüsusiyyətlərini açıb göstərməkdir. Sintaksisin əsas tədqiqat obyekti olan cümləni öyrənmək fərqli yanaşma və istiqamətlərdən keçmişdir.*

***Açar sözlər:*** *sintaksisin predmeti, söz birləşmələri, sintaksisin variasiyaları, mənanın konkretləşməsi, predikativ keyfiyyət*

“Sintaksis” yunan mənşəli söz olub, “qurulma”, “birləşmə” və “tərtibat” mənalarını ifadə edir. Hal-hazırda bu termindən dilçilikdə geniş istifadə edilir. Dilçilik elmində bu söz özünü iki fərqli mənada göstərir. Birinci olaraq, dilin sintaksisi, ikincisi isə qrammatika elminin şöbəsi anlamında. Dilin sintaksisi dedikdə, burada onun sintaktik quruluşu nəzərdə tutulur. Sintaksis dilin qrammatik sistemində xüsusi bir yerə sahibdir, insanlar üçün önəmli olan fikir mübadiləsini reallaşdırır.

Rus dilçiyində bizə sintaksisin predmenti haqqında üç önəmli fikir məlumdur. Birinci fikrə əsasən, sintaksis söz birləşmələri istisna olmaqla, yalnız cümlə və cümlə üzvlərini öyrənir (**О.Ахманова** bu fikirdədir). Lakin bu fikir təsdiqlənmiş və geniş yayılmış bir fikir deyildir. İkinci fikirdə qeyd olunur ki, cümlələr də söz birləşmələrinə daxildir və sintaksis söz birləşmələrini öyrənir. Burada söz birləşmələri iki yerə bölünür: predikativ söz birləşmələri (cümlələr) və qeyri-predikativ söz birləşmələri (Bu fikrin irəli sürülməsində **Мещанинов, Почепцов Г.Г**, **Иванова И.П.** rolu böyükdür). Nəhayət, sonuncu fikirdə sintaksisin cümlələri və söz birləşmələrini öyrəndiyi deyilir. Əksər rus dilçiləri bu fikri dəstəkləyirlər. Dilimizin qrammatik qaydasına görə də bu fikir ən doğru fikir kimi qəbul edilib [26, s. 71] .

Söz birləşmələri dedikdə, əşyalar arasında, əşya və əlamətlər, hərəkətlər arasında mövcud olan əlaqələr başa düşülür. Söz birləşmələrində tərəflərin forma-quruluş, həm də mənaca əlaqəsi əsas götürülür. Bunlardan birinə əməl edib, digərini unutmaq isə böyük səhvdir. Söz birləşmələrinin qurulmasında əsas vəzifə söz sırasının üzərinə düşür. Sözlər arasında əlaqə söz birləşmələrinin əsas mənasının dəqiqləşməsinə, eyni zamanda sözün ifadə etdiyi mənanın konkretləşməsinə, yəni sözə hansı baxımdan yanaşıldığının başa düşülməsinə imkan yaradır.

Sintaksisin ən əsas vəzifələrindən biri söz birləşmələrinin növlərini, hansı yollarla əmələ gəlməsini, mahiyyətini, birləşmədəki tərəflərin qrammatik əlamətlərini öyrənmək və eyni zamanda söz birləşməsi ilə mürəkkəb sözün, cümlənin oxşar və fərqli xüsusiyyətlərini öyrənib aşkara çıxarmaqdan ibarətdir.

Cümlə və söz birləşmələri arasında fərqlər dedikdə, ilk öncə cümlənin nisbi bitkinliyi ifadə edən dil vahidi olduğunu bilməliyik. Söz birləşmələri ən azı iki sözün birləşməsindən ibarətdirsə, cümlə isə bir sözlə, iki və daha artıq sözlərlə də ifadə oluna bilər. Modallıq daxil olmaqla, predikativ keyfiyyətə sahibliyi və cümlə intonasiyası ilə ifadə olunması cümlənin əsas əlamətlərindən biridir. Bu əlamətlər özünü söz və söz birləşmələrində göstərməsə, hər hansı bir fikri ifadəsinə xidmət etməz. Lakin onlar bitmə intonasiyası və predikativliyə sahib olmaqla yanaşı, məna və qrammatik cəhətdən birləşdikdə, düzüldükdə fikirlərin ifadəsinə xidmət edirlər [20, s. 106].

Sintaksisin əsas tədqiqat obyekti olan cümləni öyrənmək fərqli yanaşma və istiqamətlərdən keçmişdir. Müxtəlif fikirlər ortaya çıxmışdır. Bunlardan bəziləri keçmiş dövr dilçiliyində ilişib qalsa da, yenə də sintaksis tarixində müəyyən bir iz buraxmışlar. Elmi və metodoloji cəhətdən həmin istiqamətlərin təhlil edilməsi sintaksis üçün böyük bir töhfədir.

Hal-hazırda bizim öyrəndiyimiz sintaksis nəzəriyyəsi heç də birdən yaranmamışdır. Onun inkişaf mərhələlərinə səbəb olan amillərdən biri Hind-Avropa dillərinin sintaksisə yanaşması olmuşdur. Bu mərhələlərdən olan məntiqi-qrammatik mərhələnin adını çəkmək olar. Qədim yunan tarixindən başlayan bu mərhələ XIX əsrin ikinci yarısına qədər davam etmişdir. Məntiqi məktəbin nümayəndələri qrammatika və məntiq elmi arasındaki fərqi müəyyən edə bilmirdilər. Həmin məktəbin nümayəndələri hökm ilə cümləni, məntiqi subyektlə mübtədanı, predikatla xəbəri eyniləşdirirdilər.

Dil və təfəkkür bir-birilə vəhdət təşkil edir. Dil materialı əsasında formalaşan təfəkkürün təzahür forması da elə dilin özüdür. İnsan düşünəndə sözlər və cümlələrlə fikirləşir. Nə təfəkkürsüz dili, nə də dilsiz təfəkkürü təsəvvür etmək olar. Təfəkkür ümumbəşəri bir xarakterə malikdir. Hər hansı bir məfhum xalqlar üçün eyni mənanı bildirsə də, onun ifadə formaları, adətən fərqli olur. Eyni zamanda ola bilər ki, eyni fikirləri dəstəkləyir, düşünürlər, lakin o fikirlərin ifadəçisi olan sözlər və cümlələr hər xalqın mənsub olduğu dilin sözləri və cümlələri olur. Bu səbəbdən dil təfəkkür, təfəkkür də dil demək deyil. Təfəkkür qanunlarını öyrənən elm "məntiq", dil qanunlarını öyrənən elm isə "qrammatika" elmidir. Bu elmlərin özünün metodları, tədqiqat obyekti və öyrənmə üsülları vardır [22, s.48].

Burada bizi əsas maraqlandıran məsələ sintaksis olduğu üçün məntiqi və sintaktik kateqoriyalar arasındakı fərqləri araşdırmaq lazımdır.

Məntiqdə istifadə olunan hökm kateqoriyasına qrammatikada "cümlə" kateqoriyası uyğun gəlir. Məsələn, "Şəms tələbədir", "Hörümçək tor toxuyur" kimi ifadələr qrammatikaya görə cümlə, məntiqə görə hökmdür. Lakin insanın danışığı yalnız bu cür cümlələrdən ibarət olmur. Təbii olaraq müxtəlif quruluşa malik sadə və mürəkkəb cümlələrdən istifadə olunur. Əgər hökmün iki üzvü varsa, cümlənin də beş üzvü var.

"Yer üzərində sülh tərəqqipərvər insanların ən böyük arzusudur" hökmü subyekt və predikatdan ibarət olsa da, burada bir neçə cümlə üzvü vardır və bu üzvlər məntiqdə subyekt və predikat arasında bölüşdürülür. Bunlar "xəbər qrupu", "mübtəda qrupu" kimi terminlərə uyğun gəlir. Cümlənin əhatə dairəsi hökmün əhatə dairəsindən kəskin surətdə fərqlənir. Cümlə hökmdən daha böyük əhatəyə malikdir. Bütün hökmlər cümlə ilə ifadə olunsa da, ancaq bütün cümlələr hökm deyildir. Yalnız nəqli cümlələr hökm ola bilər, bədii suallar istisnadır, sual və əmr cümlələrində hökm olmur. Məntiqdən fərqli olaraq, qrammatika cümlələrin emosional keyfiyyətləri ilə maraqlanır. Bu cəhətlər onu göstərir ki, məntiqdə istifadə olunan ölçülər qrammatikaya tətbiq edilə bilməz.

Məntiqi-qrammatik hadisə sayılan predikativlik dilçilikdə cümlənin müəyyən olunmasında əsas vasitələrdən biridir. Tərkib və quruluşundan asılı olmayaraq hər cümləyə predikativlik, yəni gerçəkliyə aidiyyət xasdır ki, bu da onu fikir bildirmə və formalaşdırma vasitəsi edir.

Q.Kazımovun belə bir mülahizəsini yada salmaq olar ki, "Predikativlik cümlənin elə bir halıdır ki, onunla müqayisədə digər bütün hallar ikinci plana keçir" [12, s. 96].

S.Vəliyev isə bu müddəanın türk dilləri üçün də keçərli olduğunu söyləyir: "Predikativlik cümlə üçün əsas qrammatik şərtdir" [23, s. 43].

Bunu da bildirmək lazımdır ki, dilçilər arasında predikativliyin əsas əlamətlərinin nədən ibarət olması haqqında fikir bərabərliyi yoxdur. Bu haqda tamamilə fərqli, bəzən bir-birinə yaxın, bəzən bir-birinə uzaq mülahizələr vardır.

Digər mərhələ sintaksisə (əslində cümləyə) psixoloji cəhətdən yanaşma mərhələsidir. Cümlənin artıq formalaşması və dilçilərin cümlənin məntiqi izahını bəyənməmələri yeni mərhələnin meydana çıxmasına səbəb oldu. Bu fikrin nümayəndələrinə görə, dilin bütün qatlarında aparılan tədqiqatlar struktura tabe olunmalıdır.

Strukturalistlər dildə mövcud olan və potensial şəkildə mümkün olan cümlələri nüvə və törədici cümlələr olmaqla iki yerə bölürdülər.

Nüvə cümlələri elə cümlələrdir ki, ona başqa cümlədən formalaşan və ya başqa cümlədən çevrilən cümlə kimi yanaşmaq olmaz. Məsələn, "Biz getmədik" cümləsini nüvə cümlə hesab etmək olmaz. Çünki həmin cümlə "Biz getdik" təsdiq cümləsinin inkar şəkildə dəyişməsi nəticəsində yaranıb. Bu baxımdan yalnız ikinci cümlə ("Biz getdik") nüvə cümlədir.

Strukturalistlərə görə, bəzi cümlələrdə həm mənaca, həm də struktur dəyişməsi baş verə bilər. Bu cür dəyişməyə derivasiya deyilir. Misal olaraq, "Zahir qapını bağladı" cümləsi "Qardaşı Zahirə tapşırdı ki, qapını bağlasın" cümləsinə çevrilir.

Məlum olur ki, strukturalistlərə hər hansı bir dil hadisələrinin səbəbi maraqlı deyil. Onlar dildəki, eyni zamanda sintaktik qatdakı dəyişmə və çevrilmələri inkişafın təbii yox, təsadüfi dəyişməsi kimi şərh edirlər.

Artıq 70-ci illərin başlanğıcında, strukturalizm dilçilikdə, xüsusilə sintaksisdə bir istiqamət kimi öz əhəmiyyətini itirməyə başladı. Cümlə bitmiş fikri ifadə edən və eyni zamanda dilin daxili qayda-qanunları ilə formalaşan sintaktik vahiddir. Ən mühüm ünsiyyət və fikir mübadilə vasitəsi cümlədir.

Cümlə hər bir dilin mənsub olduğu daxili qanunlar əsasında formalaşır. Dilimiz aqqlütinativ dillərdən olduğuna görə Azərbaycan dilində hal şəkilçiləri və feilin təsrif formaları cümlənin qurulmasında mühüm rol oynayır: sözlərin müxtəlif formada dəyişib əlaqələnməsi məqsədindən asılı olaraq cümlənin formalaşmasına gətirib çıxardır. Cümlənin ifadəsində olan modal münasibət, xəbərdə özünü göstərən predikativlik əlamətləri və şifahi nözünəməxsus intonasiyası xüsusiyyətləri dedikdə, dilin daxili quruluşu başa düşülür.

Cümlə ifadəsində modallığa, predikativliyə, bitkinlik intonasiyasına sahib olan bir səs, bir söz, bir söz birləşməsi və sözlərin müxtəlif şəkildə birləşməsi əks oluna bilər. Yəni cümlə özünə qədərki hər bir dil vahidindən formalaşa bilir. Cümlələr birliyi isə daha böyük sintaktik vahidlərin yaranmasına səbəb olur [27, s. 61].

Sintaksisin əsas və mərkəzi vahidi olan cümlədə dilin ən mühüm xüsusiyyətləri öz əksini tapır. Cümlərin köməyi ilə dil təfəkkür gerçəkliyi rolunu və kommunikativ funksiyanı həyata keçirir.

Sintaksisin mərkəzi vahidi olduğu üçün cümləni yuxarı və aşağı səviyyələrin hər ikisində öyrənmək olar, yəni ki, həm sözdən, söz birləşməsindən cümləyə doğru, həm də ki, mətndən cümləni ayırıb təhlil etmək olar.

Dilçi və filosoflar cümləni təsvir edərkən onun şifahi və yazılı nitqdə ünsiyyət silahı, fikir mübadilə vasitəsi olduğunu qeyd edirlər. İnsan obyektiv aləm barəsində fikirlərini, düşüncələrini, bir-birinə demək istədiklərini məhz rabitəli nitqin canlı vahidi olan cümlələrin köməyi ilə həyata keçirir.

Cümlə rabitəli nitq kimi özündə bir sıra əlamətləri daşıyır. Bunlar aşağıdakılardır:

Bitmiş fikri ifadə edir. Cümlənin bu cəhəti onun ən əsas əlamətlərindəndir. Amma bitkinlik burada nisbi xarakter daşıyır. Heç bir cümlə hansısa bir məsələ haqqında tam bitkin bir fikir ifadə edə bilməz. Fikir bitkinliyi burada o məna verir ki, danışan şəxs bir cümlə ilə çatdırmaq istədiyini çatdıra bilir və başqa sözlərə ehtiyac olmur. Hər bir cümlə şifahi nitqdə into-

nasiya, yazılı nitqdə isə nöqtə və ya nöqtə hüququnda digər durğu işarələri ilə ( üç nöqtə, sual işarəsi, nida və s.) ifadə olunur. Cümləni mətndən çıxartmaqla da onun mənasını başa düşə bilərik, bu, cümləni təşkil edən sözlərdən alınan mənadır. Amma cümlənin həqiqi məzmununa gəldikdə isə yalnız mətn daxilində düzgün anlaşıla bilər. Cümlənin ayrılıqda ifadəsində əks olunan ümumi məna sintaksisin təqdiq obyektidir. Burada aktual sintaksisin obyekti isə mətnin gedişindən anlaşılan məzmunudur və söyləmin təzahürünü şərtləndirir [29, s.49].

Cümlə o vaxt meydana gəlir ki, müəyyən bir fikrin ifadəsinə ehtiyac olur. Belə bir zərurət olduqda əvvəlcə struktur və söz materialı seçilir. Daha sonra cümlə danışanın təfəkkür və nitq qabiliyyətindən asılı olaraq formalaşır. Cümlənin kommunikativ funksiyası onun qrammatik üzvlənmə zəminində aktual üzvlənmənin də formalaşmasına gətirib çıxardır.

Cümlənin digər vacib əlamətlərindən biri də onun predikativliyidir. Cümlə strukturunun başlıca təşkiledici mərkəzi mübtəda-xəbər əlaqəsidir. Cümlə yaratmaq üçün sözləri, söz birləşmələrini elə əlaqələndirmək lazımdır ki, danışan istədiyi fikri ifadə edə bilsin. Burada hal şəkilçilərini, qoşma, bağlayıcı, modal söz və ədatları, bütün qrammatik vasitələri düzgün, yerində işlətmək lazımdır.

Tədqiqatçıların apardığı araşdırmalara görə tarixən cümlədəki hər bir sözdə predikativlik olmuş, zamanla əvvəlki sözlər kvazipredikativ (zəif predikativ) xarakter almış və nəhayət, predikativlik cümlənin xəbərində möhkəmlənməklə monopredikativ cümlələr meydana gəlmişdir.

Predikativliyə başqa cür yanaşma da mövcuddur. Bu yanaşmaya görə, predikativlik iki komponentin – müəyyənləşənlə müəyyənləşdirən, predmet və onun modal-zaman əlaməti arasındakı münasibət kimi izah edilir. Predikativliyin bu yanaşmasını 3 variantda izah etmək olur: a) predikativlik subyekt və obyekt arasında əlaqədir (məntiqi aspekt); b) predikativlik tema və rema arasındakı əlaqədir (kommunikativ aspekt); c) predikativlik mübtəda və xəbər arasındakı əlaqədir (qrammatik aspekt) [35, s. 75].

Predikativlik elə bir kateqoriyadır ki, cümləni qeyri-kommunikativ vahidlərdən, yəni söz və söz birləşmələrindən fərqləndirməyi bacarır.

Cümlənin əlamətləri arasında intonasiya mühüm yer tutur. Predikativliyin universal vasitəsi olan intonasiyanın köməyi ilə yalnız sözlərin birləşməsi deyil, tək-tək sözlərdə cümləyə çevrilə bilir.

İntonasiyanı quruluş əlaməti və ya semantik əlamət kimi müəyyən etmək çətindir. Çünki, o təkcə söyləmi formalaşdırmaq və onun məqsədini aydınlaşdırmaqla qalmır, eyni zamanda cümlənin semantik nüvəsini anlamağa kömək edən vasitə kimi çıxış edir.

Adi intonasiya ilə tələffüz olunan cümlələrdə tədricən ton yüksəlməsi baş verir. Burada intonasiya xəbərdən əvvəlki sözün üzərində yüksək nöqtəyə çatır və tədricən alçalaraq fasilə ilə nəticələnir. Bu fasilə həmin cümlə ilə yeni yaranmış cümlənin sərhədini yaradır. Şifahi nitqimizdə ifadə olunan hər bir cümlə intonasiya ilə müşayiət olunur. İntonasiyasız cümlənin təsəvvür etmək olmaz. Cümləni tamamlayan, bitkinləşdirən, predikativlik yaradan vasitələr olduqda da intonasiya mütləq fəaliyyət göstərməlidir.

İnsan nitqinin iki formasından – şifahi və yazılı formalarından ən qədimi intonasiyanın köməyi ilə formalaşan şifahi nitqdir.

Hər bir cümlədə rast gəlinən modallıq onun əhəmiyyətli əlamətlərindəndir.

Modallıq onu göstərir ki, hər bir cümlədə obyektiv aləmə məxsus hər hansı bir hadisə haqqında məlumat verməklə, həmin hadisəyə, danışanın söylədiyi fikrə münasibət də bildirilir. Yəni buradakı hər bir cümlə özündə kommunikativ və ekspressiv funksiyasını daşıyır. Cümlənin modallığını yaradan emosional-ekspressiv funksiyasıdır. Modallığın ən vacib ifadə vasitələri modal sözlərdir. Modal sözlərlə yanaşı, müxtəlif söz və söz birləşmələrinin köməyi ilə çoxlu sayda modal konstruksiyalar yaratmaq olar. "Ara sözlər" adlanan bu sözlərin hamısı modal münasibət ifadə etsə belə, bunların hamısı modal sözlərdən ibarət deyil. Modallığın qrammatik-morfoloji vasitələrinə feilin əmr, şərt, vacib, lazım, arzu formalarının şəkilçilərini misal göstərmək olar [15, s. 95].

Sintaksisin əsas və mərkəzi vahidi olan cümlənin özünəməxsus struktur xüsusiyyətləri və semantik əlamətləri mövcuddur. Qeyd olunmuş bütün xüsusiyyətlər cümlənin ötəri, ani, növbələşən xüsusiyyətləri yox, cümlə ilə birlikdə mövcud olan daimi xarakterik əlamətləridir.

Tarix boyu cümləyə fərqli aspektlərdən baxılmış, saysız-hesabsız təriflər verilmişdir. Hələ e.ə II əsrdə yaşamış frakiyalı Dionismin dediyi tərif cümlənin qeyd etdiyimiz əlamətlərindən birincisini əhatə etməklə daha geniş yayılmışdır: "Sözlərin bitmiş fikir ifadə edən birləşməsi nitqdir". Bu tərif hələ də öz aktuallığını qoruyub saxlayır.

Zamanla cümləyə münasibətdə müxtəlif cərəyanlar meydana çıxmışdır. Onların arasında məntiqi və psixoloji cərəyanların nümayəndələrinin fikirləri daha geniş vüsət almışdır.

Cümlə haqqında fikirlər xarici elm xadımları ilə yanaşı, Azərbaycan alimlərinin yaradıcılığında xüsusi bir yerə sahibdir. Ə.M.Dəmirçizadə, Z.Tağızadə, M.Şirəliyev, Q.Kazımov, M.Həsənov, Ə.Abdullayev və s. kimi görkəmli alimləri cümlə üzərində tədqiqat apararaq bir sıra monoqrafiya və dərsliklərin yazılmasına nail olmuşlar. Bu müəlliflərin cümləyə verdiyi tərif və yanaşmalarına nəzər yetirək:

Z.Tağızadə, ümumiyyətlə cümləyə hər hansı bir tərif verməyin əleyhinə olmuş, hər bir dilin özünəməxsus faktik materialını əsas götürməyi vacib bilmişdir. Cümləyə tərif verilməsinin düzgün olmamasının əsas səbəbi kimi cümlənin məntiq və psixologiya ilə əlaqəsini göstərmişdir [22, s.25].

1972-ci ildə çap olunan "Müasir Azərbaycan dili" kitabında da cümləyə bu cür tərif edilmişdir: "Cümlə hər bir dilin qanunları əsasında qrammatik cəhətdən formalaşan və bitmiş fikri ifadə edən nitq vahididir" [19, s. 82]. Eyni zamanda bu fikir bitkinliyinin nisbi xarakterə malik olduğu da qeyd olunmuşdur.

Q.Kazımovun cümləyə verdiyi tərif məhz elə onun "Müasir Azərbaycan dili. Sintaksis" kitabında da eyni şəkildə göstərilmişdir: "Cümlə fikir mübadiləsi və ən mühüm ünsiyyət vasitəsidir" [ 11, s. 77].

Sintaksislə bağlı tədqiqat aparan alimlərin maraqlandığı və məşğul olduğu məsələlərdən biri də cümlə üzvləridir. Cümlə üzvlərinin tədqiqi ilə məşğul olan alimlərdən M.Şirəliyev, M.Melioranski, M.A.Terentyev, N.K.Dmitriyev, A.P.Potseluyevski, L.N.Xaritonov, V.A.Qordlevski, A.N.Kononov, E.İ.Ubryatova, İ.A.Batmanov, M.Balakayev, A.S.Safayev, M.Z.Zəkiyev, N.Z.Haciyeva, A.Q.Qulamov, Q.A.Abdurahmanov və başqaların misal göstərmək olar. Bu məsələ həmçinin Avropa və rus dilçilərinin əsərlərində xüsusi yerə malikdir. Əsasən də Ş.Balli, A.A.Şahmatov, F.F.Fortunatov, V.V.Vinoqradov, İ.İ.Meşşaninov kimi alimlərin bu sahə ilə bağlı xidmətləri danılmazdır.

XX əsrin 30-cu illərindən başlayaraq, Azərbaycan dili haqqında yazılan qrammatika kitablarında cümlə üzvlərinə tərif verilmişdir. Bu təriflərin hamısı eyni məzmuna sahibdir – "cümləni təşkil edən sözlərə cümlə üzvləri deyilir" [12, s. 134].

Bitmiş fikir ifadə etmək üçün müəyyən qrammatik suallarla üzvi surətdə bir-birinə bağlı olan sözlərə cümlənin başlıca üzvləri, cümlənin başlıca üzvlərinə heç bir sualla bağlanmayıb, amma cümlədə mövcud olan fikrin daha aydın ifadə olunmasına xidmət edən sözlər isə cümlənin əlavə üzvləri adlandırılır.

Cümlənin başlıca və əlavə üzvləri cümlədə eyni vəzifə, eyni xasiyyət daşımır və bu üzvlərin vəzifəsindən asılı olaraq hər biri 4 yerə bölünür. Başlıca üzvlərə mübtəda, xəbər, tamamlıq, təyin; əlavə üzvlərə isə xitab, nida, ara söz və bağlayıcı daxildir. Başlıca üzvə daxil olan xəbər baş üzv, mübtəda, tamamlıq, təyini isə müəyyənləşdirici üzv qəbul olunur.

Bu dövrün ən əsas nöqsanı mübtədanın baş üzv qəbul edilməməsi, zərfliyin cümlə üzvləri siyahısından çıxarılması, xitab, ara söz, bağlayıcı və nidanın cümlə üzvü qəbul edilməsi idi.

M.Həsənov cümlə üzvləri ilə bağlı olan fikir ayrılığına son qoymuşdur. O, cümlə üzvlərini baş və ikinci dərəcəli üzvlər olmaqla iki hissəyə ayırmışdır. Baş üzvlərə mübtəda və xəbərin, ikinci dərəcəli üzvlərə isə tamamlıq, təyin və zərfliyin aid olduğunu qeyd etmişdir [10, s. 100].

Cümlə struktur baxımdan qrammatik vahiddir və cümlənin strukturunu açmaq sintaksisin əsas vəzifələrindən biridir.

"İnsanların bir-biri ilə ünsiyyət qurması ayrı-ayrı sözlərlə yox, cümlələr və cümlələrin ardıcıllığından yaranmış kiçik və böyük mətnlərlə reallaşır. Ənənəvi qrammatikada söz kimi cümlə də çox önəmli dil səviyyəsi qəbul edilirdi. Cümləni əsasən sözlərdən ibarət olan bir bütöv kimi hesab edirdilər və sintaksisin vəzifəsi kimi cümlə düzəltmək üçün hansı sözün hansı sözlə hansı ardıcıllıqla əlaqəyə girməsini tədqiq etməkdən ibarət olduğu qeyd edilirdi" [14, s. 165].

Cümlə bir qrup sözlərin qrammatik qaydalara uyğun şəkildə düzülüşüdür.

"Cümlənin düzgünlüyünü yoxlamaq üçün mümkün olan məqamı tapmaq cümlənin nə demək olduğunu tapmaq deməkdir" [13, s.155].

Ənənəvi dilçilik cümlənin anlamının onun tərkibində olan sözlərin və sintaktik strukturunun müəyyən etdiyini bəyan edirdi. İlk dəfə ingilis dilinin struktur tədqiqinə aid əsər yazanlardan biri olan Ç.Friz yazırdı ki, "Hər hansı söyləmin tam linqivistik mənası ayrı-ayrı sözlərin leksik üstəgəl struktural mənalarından ibarətdir. Burada qeyd olunan struktur məna çox dərin və qaranlıqdır" [33, s.56].

Transformal qrammatika nəzəriyyəsində hər bir cümlənin iki müxtəlif səviyyəli sintaktik strukturlardan ibarət olduğu və onların da transformasiya qaydaları ilə idarə olunduğu qeyd olunub. Bunun iki qatı: alt qat (deep structure) və üst qat (surface structure) vardır. Bu nəzəriyyəyə görə alt qat üst qatdan daha çox məna ilə bağlıdır. Üst qat, əsasən, cümlənin səslənməsini ehtiva edir [38, s. 184].

N.Xomskinin hipotezasında çox sayda mövcud olan "üst sintaktik strukturların" arxasında "dərinlik sintaktik strukturları" mövcuddur, fikrin ifadəsinin ümumi sxemini inikas etdirir və onların sayı azdır. Bu səbəbdən dilə sahib olan insan, uşaq qısa müddətdə "dərinlik sintaktik struktura" əsasən "üst sintaktik struktura" çıxa bilir və o zaman danışır.

Daha sonra N.Xomski qeyd etmişdir ki, "Eyni bir fikir müxtəlif cümlələrdə ifadə oluna bilər və bəzən eyni cümlələr müxtəlif mənalar daşıyır" [38, s. 215]. Bu cür cümlələr omonim yaxud ikimənalı adlanır. Xomskinin fikrincə, bu omonim cümlələr eyni "üst sintantik struktura" sahib olsalar da, müxtəlif "dərinlik sintaktik strukturlara" malikdirlər. Məsələn: Məhəmməd su təklif edir, Məhəmməd su istəyir. Başqa bir nüməyə baxaq. İngiliscə Charlie is easy to please (Çarlinin xoşuna gəlmək asandır) və Charlie is eager to please (Çarli xoşa gəlməyə can atır). Bu cümlələr xarici cəhətdən oxşar struktura sahib olsalar da, dərin strukturda onların mənaları fərqlidir. Məlumdur ki, cümlənin tərifi bu cür verilir: bitmiş bir fikrin ifadəsinə cümlə deyilir. Belə ki, ayrı-ayrı mövcud olan sözlər bütöv hökmü ifadə edə bilmir. Adlıq cümlələr xaric bütün digər cümlələrin mübtəda və xəbəri vardır. Amma bir məsələyə baxsaq, görmüş olarıq ki, ilkin cümlə və söyləmlər səslər və sözlərdən ibarət olmaqla situasiyanın məhsulu idi və onlar simpraktik xarakterə malik idi – əgər bir situasiyada söz predmenti bildirirdisə, eyni söz, intonasiyanın müşayiəti ilə digər situasiyada bütöv hökmü bildirə bilər və tam təksözlü cümlə ola bilərdi. Bu cür hallar zamanı cümlənin mübtədası sözlə ifadə olunurdu, cümlənin ikinci hissəsi, yəni xəbər jest və praktik hərəkətlərlə yekunlaşırdı. Başqa vəziyyətlərdə əksinə münasibətlər formalaşır, xarici predmentə istiqamətlənmiş hərəkət mübtəda rolu oynuya bilir və sözlü forması hərəkətə məxsus ola bilir. Dildə olan sonrakı inkişaf nəticəsində jest və hərəkətlər feilə keçir, sözlərin simpraktik əlaqəsi sinsemantik rabitələrlə əvəz olunur, yəni sözün rabitəsi yaranır. Ayrıca söz predmeti, keyfiyyəti, yaxud hərəkəti bildirirsə və onu ümumiləşdirirsə, deməli, cümlə bütöv fikrin ifadəsi olmaqla hökm bildirir. Müasir linqvistik təsəvvürlərə əsasən dildə iki müxtəlif söz mənalarının təşkili prinsiplərini ayırırlar. Onlardan biri anlayışları törədən, yəni paradiqmatik, o biri isə söyləmdir – sintaqmatik adlanır. Dilin paradiqmatik təşkili dedikdə, bu dilin elementinin kodun məlum olan iyerarxik sisteminə və əksiklərə daxil olunmasıdır [35, s. 85].

Cümlə və söyləmin təşkil olunması digər xüsusiyyətlərinə görə də fərqlənir. Sözdən cümləyə keçid nitqin qurulması prinsipinə görə fərqlənir. Linqvistikada buna sintaqmatik

prinsip də deyirlər. Söyləmdə qarşı qoymanın iyerarxiyası yox, bir sözdən başqasına keçidlər reallaşır. Ən sadə cümlələrə nəzər yetirsək, məsələn, "Meşə yanır", "Uşaq ağlayır" başa düşəcəyik ki, burada "meşə" və "yanır" sözlərinin qarşılaşdırılmasından, elementlərin iyerarxiyasından söhbət getmir, bir elementdən digərinə rahat keçiddən söhbət gedir, bu birləşik söyləmin təşkilidir [24, s.105].

Cümlənin sintaktik strukturu məsələsinin müxtəlif aspektlərinə həmişə yüksək dərəcədə diqqət yetirilib və yetirilməkdədir.

Lakin indi də cümlənin kommunikativ yükü, sintaktik strukturu və xətti xarakteristikaları və konstituenləri ilə bağlı olan bir sıra məsələlər həll olunmamış, bəzi suallar öz cavabını tapmamışdır. Ç.Friz izahı ilə əsaslansaq, "cümlənin öyrənilməsi sahəsindəki bu vəziyyət, bu anlayışın, yəni cümlə anlayışının başında duran xarakterik xüsusiyyətlərin və cümlənin həcmi məsələsinin qeyri-mümkünlüyü ilə xarakterizə olunur" [33, s. 13].

"Cümlə – ünsiyyətin reallaşması üçün ən kiçik dil vahididir". Hər şeyin eyni zamanda hər bir dil vahidinin özünəməxsus forma və tərkibi olması, ünsiyyət prosesi zamanı cümlə vasitəsilə ötürülən məlumat, söyləm bu və ya digər fikrin tərkibinin təzahürüdürsə, cümlənin məğzinin bu cür formalaşdırılması yuxarıda qeyd etdiyimizlə mahiyyətcə eynilik təşkil edir [39, s. 23].

Linqvistlərin çoxu düşünür ki, cümlə mütləq şəkildə sintaktik binar, yəni iki qütbdən ibarətdir və mübtəda qrupu ilə xəbər qrupundan təşkil olan predikativliyin ilkin strukturunu təzahür etdirir. Cümlə qrammatik cəhətdən iki üzvlü kompleksdir və bu kompleksin məqsədi mübtəda ilə xəbərin, yaxud daha mürəkkəb hallarda mübtəda qrupu ilə xəbər qrupunun qarşı-qarşıya qoyulmasından ibarətdir.

B.A.İliş isə "Cümlə – mübtəda-xəbər strukturana malik dil vahididir" kimi cümləyə tərif vermişdir [27, s. 35]. Bəzi dilşünaslar da cümlə quruluşunun sintaktik əsasında predikativliyin, predikativlik strukturunun olduğunu vurğulayırlar. Bu dilşünaslara V.V.Vinoqradovu, E.Benvenisti, Z.V.Sulimovskayanı, İ.P.Susovu, S.İ.Kokorinanı misal göstərmək olar.

Digər qrup dilçilər isə cümlə kimi yalnız struktur-predikativ quruluşları yox, bəzi sözləri və söz birləşmələrini də hesab edirlər. Məsələn: eh!, ax!, bəli, xeyr.

Əksər linqvistlərin diqqət etdiyi məqam cümlənin formasının tədqiqində cümlənin xətti xüsusiyyətləri və onun uzunluğu məsələsidir. Müasir dilçiliyin fərqli cəhətlərindən biri statistik metodun tətbiq olunmasıdır.

Hər kəsə məlumdur ki, cümlələr quruluşuna görə sadə və mürəkkəb cümlələrə ayrılır. Bundan başqa, hər kəs tərəfindən qəbullanmış bir faktdır ki, sadə cümlələr sintaktik quruluşuna görə ilkin predikativlik strukturu çərçivəsindən qırağa çıxmırlar və mürəkkəb cümlələr, bu kimi iki və daha artıq ilkin predikativlik strukturunun müxtəlif kombinasiyalarından ibarətdir.

Cümlə onu təşkil edən üzvlərdən ibarətdir. Cümlə quruluşu nominativ mahiyyətə malik olduğuna görə baş üzvlər – aktiv və rəngarəng ifadə formalarında özünü göstərə bilirlər. İkinci dərəcəli üzvlər cümlənin informativ tutumunun əhatəli olmasını şərtləndirir. Qeyd etdiklərimizdən gəlinən nəticəyə görə, cümləni baş üzvlərsiz təsəvvür etmək olmaz. Cümlədə baş üzvlərdən hər hansı biri olmalıdır. "Cümlə fikri ifadə edir" dediyimiz zaman burada fikrimizi ifadə etmək üçün baş üzvlərin ya hər ikisinə, ya da birinə ehtiyac duyuruq.

**Ədəbiyyat**

*Azərbaycan dilində*

1. Abbasov, Ə. Azərbaycan dilinin qrammatikası. Fonetika və morfologiya / Ə.Abbasov, D.Quliyev, S.Cəfərov. –Bakı: Azərnəşr, – 1941. – 176 s.
2. Abdullayev, Ə. Azərbaycan dili məsələləri / Ə.Abdullayev, – Bakı: Bakı Univeristeti, – 1992. – 332 s.
3. Abdullayev, Ə. Müasir Azərbaycan dili. Sintaksis, IV hissə / Ə.Abdullayev, Y.Seyidov, A.Həsənov. – Bakı: Maarif, – 1972. – 475 s.

4. Abdullayev, K. Azərbaycan dili sintaksisinin nəzəri problemleri / K.Abdullayev, – Bakı: Maarif, – 2016. – 11 s.
5. Abdullayev, N. Sadə cümlə, müasir Azərbaycan dilindən mühazirə mətni / N.Abdullayev, – Bakı: APİ, – 1979. – 53 s.
6. Axundov, A. Ümumi dilçilik / A.Axundov, – Bakı: Maarif, – 1979. – 256 s.
7. Azərbaycan dilinin izahlı lüğəti / – Bakı: Elm, – c.4. – 1987. – 541 s.
8. Dəmirçizadə, Ə. Müasir Azərbaycan dili. Cümlə üzvləri / Ə.Dəmirçizadə, – Bakı: Azərnəşr, – 1947. – 85 s.
9. Ərəb və fars sözləri lüğəti / – Bakı: Yazıçı, – 1985, – 1035 s.
10. Həsənov, M. Azərbaycan dilinin sintaksisin tədrisində qarşıya çıxan çətinliklər / M.Həsənov, – Bakı: Maarif, – 1987. – 152 s.
11. Kazımov, Q. Azərbaycan dilinin tarixi sintaksisi / Q.Kazımov, – Bakı: Elm, – 2019.
12. Kazımov, Q. Müasir Azərbaycan dili. Sintaksis / Q.Kazımov, – Bakı: “Aspoliqraf” LTD MMC, – 2004. – 496 s.
13. Kazımov, Q. Müasir Azərbaycan dili. Sintaksis / Q.Kazımov, – Bakı: Təhsil, – 2007, – 3 s.
14. Məhərrəmova, R. Azərbaycan dilinin tarixi sintaksisinə dair materiallar / R.Məhərrəmova, M.Cahangirov, – Bakı, –1962. –259 s.
15. Məmmədov, N. Dilçiliyə giriş / N.Məmmədov, A.Axundov. – Bakı: Maarif, – 1980.
16. Mirzəzadə, H. Azərbaycan dilinin tarixi qrammatikası / H.Mirzəzadə, – Bakı: Azərbaycan Universiteti, – 1990. – 374 s.
17. Müasir Azərbaycan dili. Sintaksis / – Bakı: Elm, – c.3. –1981, – 442 s.
18. Müasir Azərbaycan dili. Sintaksis. – Bakı: ADU, – 1959. – 453 s.
19. Müasir Azərbaycan dili. Sintaksis. Ali məktəblər üçün dərs vəsaiti, II kitab / –Bakı: Aztədrisnəşr, – 1962. – 271 s.
20. Şirəliyev, M. Azərbaycan dilinin qrammatikası, II hissə, Sintaksis / M.Şirəliyev, M.Hüseynov, – Bakı: Azərnəşr, – 1955. – 162 s.
21. Şirəliyev, M. Azərbaycan dilinin sərfi, II hissə / M.Şirəliyev, M.Hüseynov, – Bakı: Azərnəşr, – 1950. – 159 s.
22. Tağızadə, Z. Müasir Azərbaycan dilinin sintaksisi / Z.Tağızadə, – Bakı: APİ, – 1960. – 151 s.
23. Vəliyev, S. Sadə cümlə / S.Vəliyev, – Bakı: Elm, – 1997.
24. Veysəlli, F. Azərbaycan dilinin funksional qrammatikası: sintaqmatika, söz birləşməsi və sadə cümlə sintaksisi / F.Veysəlli, Q.Kazımov, İ.Kazımov. – Bakı, – 2004, – c.3.

*Rus dilində*

25. Ахманова, О.С. Современные синтаксические теории / О.С.Ахманова, – М., – 1955.
26. Иванова, И.П. Теоретическая грамматика современного английского языка / И.П.Иванова, В.В.Бурлакова, Г.Г.Почепцов, – М.: Высшая школа, – 1981.
27. Ильиш, Б.А. История английского языка / Б.А.Ильиш, – М.: Высшая школа, – 1968.
28. Мешанинов, И.И. Члены предложения и части речи / И.И.Мешанинов, – Л., – 1978.
29. Почепцов, Г.Г. Конструктивный анализ структуры предложения / Г.Г.Почепцов, – Киев, –1971.
30. Расторгуева, Т.А. История английского языка. A History of English / Т.А.Расторгуева, – М., – 1983.
31. Смирницкий, А.И. История английского языка (средний и новый период) / А.И.Смирницкий, – М., –1965.

*İngilis dilində*

32. David, C. The Cambridge Encyclopedia of Language / C.David, – Cambridge University Press, – 1992.
33. Fries, Ch. The Structure of English Sentences / Ch.Fries, – N.Y. – 1952.
34. İlyish, B.A. The Structure of Modern English Grammar / B.A.İlyish, – L.Prosvescheniye, – 1971.
35. Jespersen, O. Essentials of English Grammar / O.Jespersen, – London, – 1933.
36. Lyons, J. Generative Syntax. New Horizon’s in Linguistics / J.Lyons, – London, – 1973.
37. Martin, H. Advanced Grammar in Use / H.Martin, – Cambridge University Press, – 2002, – p. 341.
38. Chomsky, N. Syntactic structures, Den Hagg / N. Chomsky, – 1957.

39. Pintzuk, S. Phrase Structures in Competition: Variation and Change in Old English Word Order: / doctoral dis. / – University of Pennsylvania, – 1991.
40. Thomson, A.J. A Practical English Grammar / A.J.Thomson, A.V.Martinet. – Oxford University Press, – 1986. – p. 332.


**F.M.Allahverdiyeva**

**Word Combination and Sentence as Foundation of Syntax Variations**

***Summary***

The article deals with the study of syntax,one of the most important issues in linguistics.Studies on the phonetic, lexical and morphological levels of language have been studied more extensively than the syntactic level.For this reason, research conducted a great importance in any sphere of syntax.At the same time,the issue of dividing a sentence into its constituent parts, that is determining the elements of a sentence,has always been of great interest in linguistics.One of the main tasks of syntax is to study the types of word combinations, the ways in which they are formed, their essence , the grammatical features of the parts in the combinations and at the same time to reveal and show the similar and different characteristics of word combinations and complex words.The study of the sentence which is the main object of study in syntax,has undergone different approaches and directions.

***Keywords:*** *subject of syntax,word combinations, syntax variations,concretization of meaning, predicative quality*

**Ф.М.Аллахвердиева**

**Словосочетания на фоне вариаций синтаксиса предложений**

***Резюме***

Статья посвящена изучению синтаксиса-одного из важнейших вопросов языкознания. Исследования фонетического, лексического и морфологического уровней языка изучались более подробно, чем синтаксический уровень. По этому исследования в любой сфера синтаксиса имеют большое значение. В то же время вопрос о членении предложения на составные части, то есть об определении элементов предложения, всегда представлял большой интерес в языкознании. Одной из основных задач синтаксиса является изучение видов словосочетаний, способов их образования,их сущности грамматических особенности частей сочетаний и одновременно выявление и показ сходных и различных признаков словосочетаний и сложных слов. Изучение предложения являющегося основным объектом изучения синтаксиса, претерпело различные подходы и направления

***Ключевые слова:*** *предметы синтаксиса, словосочетания, вариаций синтаксиса*

*Rəyçi: f.e.d., prof. İ.Tahirov*

*Redaksiyaya daxil olub: 19.05.2025*